Scientific News of Azerbaijan State
Academy of Physical Education and Sport

SPORT SCİENCE JOURNAL
Vol 3 Issue 2, June 2018

*İcmal*

# Kütləvi idman tədbirləri, onların mahiyyəti və əhəmiyyəti

*İlkin Həsənov*[1]
[1]*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**Nəşr tarixi**
Qəbul edilib 1 mart 2018
Dərc olunub: 5 iyun 2018
© 2018 ADBTİA. Bütün hüquqlar qorunur.

**Açar sözlər:** kütləvi idman tədbirləri, yarışlar, tələbələr, könüllülər, Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Formula I.

Benəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malikdir. Təşkilatçılıq, təhlükəsizlik, iqtisadi və kommunkasiya imkanları hər zaman həlledici rola malikdir. Bir çox ölkələrə beynəlxalq tədbirlərə evsahibliyi etmək üçün rəqabət aparırlar, yarış və tədbirlərin ev sahibləri 5-10 il sonra üçün belə müəyyən olunur.

Bu baxımdan beynəlxalq yarış və tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin böyük uğurudur. Azərbaycanın dünyada etibarlı tərəfdaş, dünyəvi ölkə, güclü iqtisadiyyata, sabit və təhlükəsizliyə malik olması belə tədbirlərə evsahibliyi etməsi imkanlarını artırır və bir çox hallarda digər ölkələrlə rəqabətdə üstünlüyə sahib olur.

Eyni zamanda, belə tədbirlərin keçirilməsi Azərbaycana həm iqtisadi, həm də strateji baxımdan böyük fayda gətirir. Etibarlı tərəfdaş kimi tanınması ölkəyə investisiyaların axmasına, əməkdaşlığa açıq olması ölkəyə yeni texnologiyaların gəlməsinə səbəb olur. Bunlarla bərabər bu tədbirlər Azərbaycan həqiqətlərinin, Azərbaycanın ədalətli mövqeyinin dünyaya yayılmasına böyük təkan verir.

Gənclərin bu tədbirlərdə könüllülər formasında aktiv iştirakı onlar üçün də böyük təcrübə olur. Daha peşəkarlaşan gənclər isə Azərbaycanın gələcəyi üçün əvəzedilməz işgüzarlıq vərdişləri qazanırlar (1).

Məsələn, Azərbaycanda ilk dəfə olaraq “Formula-1” yarışları keçirildi. Yüksək səviyyədə keçən yarışlar hər zaman dünya ictimaiyyətinin diqqətində olur. “Formula-1” yarışları dünyanın ən çox izlənilən və ən prestijli ,idman yarışları sırasındadır. Hər yarışı təqribən 420 milyon televiziya tamaşaçısı izləyir. Bakıda keçirilən yarış həm də yolun uzunluğuna, sürət imkanlarına və ən əsası da şəhər içində keçirilməsinə görə fərqləndi. Əslində,yarış iştirakçılarının dediyinə görə, Bakı yolu digər bir neçə yolun qarışığından yaranan özünəməxsus yoldur.

Artıq bütün idman yarışlarının həm də iqtisadi və siyasi tərəfləri mövcuddur. Bu müasir dünyanın reallığıdır. İqtisadi hesablamalar həmişə maraq kəsb edib. “Formula-1” yarışlarının iqtisadi faydası spesifik iqtisadi hesablamalar ilə aparılır. Beynəlxalq iqtisadi təhlil mərkəzləri də hər yarışdan sonra bununla bağlı xüsusi hesabatlar da hazırlayırlar.

Adətən,dünyanın bütün ölkələri “Formula-1” yarışlarını,əsasən,ölkənin, şəhərin tanıdılması, turistlərin cəlb olunması və dolayısı ilə iqtisadiyyatın qazanması məqsədilə təşkil edirlər. Və hər bir ölkə bunun üçün büdcə vəsaitlərindən istifadə edir. (3)



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

Ölkəmizdə keçirilən sonuncu tədbir, "Formula-1" yarışı ilə bağlı bir sıra rəqəmlərə diqqət yetirək.Yarışların sponsorlarının (yollarda, avtomobillərin üzərində, pilotların geyimlərində olan markalar) 3 gün ərzində reklam kontaktlarının dəyəri orta hesabla 70 milyon dollar miqyasında qiymətləndirilir. Bu,o demək ki, 420 milyon insan televiziya ekranlarında yarışlar zamanı neçə dəfə o markaları görürsə, o saya çatmaq üçün televiziya reklamlarının adi agent qiymətləri 70 milyon dollar dəyərindədir. Sponsorlar içində ən çox reklam kontaktı Red Bull markasına aiddir, bu kontaktların dəyəri 22-27 milyon dollar miqyasında qiymətləndirilir. Nəzərə alsaq ki, bütün yarış boyu 420 milyon insan "Baku" sözünü, şəhərin bütün mənzərəsini bir marka kimi görürdü və bu görüntü sponsor görüntülərindən bir neçə dəfə daha intensiv idi, bu,o deməkdir ki, Bakı şəhərinin və Azərbaycanın turizm məqsədilə reklamı üçün eyni intensivlik və göstərmə sayının dəyəri ən azı 60 milyon dollardan çoxdur.

Əlavə olaraq təqribi hesablamalara görə, Bakıya 10 mindən artıq turistin gəlməsi gözlənilirdi. Yarışlardan sonra Bakı otellərindən verilən bilgilərə görə bütün otellərin otaqları demək olar ki, tam sifariş olunmuşdu. Orta hesabla bir turistin 3 gün ərzində bütün xərci 1000 dollar ətrafında qiymətləndirilir. Bu isə əlavə olaraq 10 milyon dollar ölkəyə gəlirin gəlməsi deməkdir.

Bunlar birbaşa iqtisadi mənfəət sayılır. Amma birbaşa iqtisadi mənfəətdən başqa dolayısı iqtisadi mənfəət də mövcuddur. Məsələn, xarici investisiyaların cəlb olunması. Xarici investorların investisiya qərarları həmişə bir neçə göstəricinin məcmusu əsasında reallaşır. Bunlar - ölkə nə dərəcədə təhlükəsizdir, beynəlxalq arenada nə dərəcədə tanınır, müasir meyllər bu ölkədə necə təmsil olunur, kontingent necədir, hökumət etibarlı tərəfdaşdırmı və s. göstəricilərdir. Belə mötəbər yarışların keçirilməsi bu sadaladığım göstəricilərin təmin olunmasını bütün dünyaya nümayiş etdirir. Bu isə xarici investisiyaların daha intensiv cəlb olunması, onların özləri ilə bərabər müasir texnologiyaları gətirməsi və bütün bunların nəticəsi kimi iqtisadiyyatın inkişaf edərək əhalinin sosial rifahının yaxşılaşması ilə nəticələnir(2).

"Formula-1" yarışları bir daha göstərdi ki, Azərbaycan sürətlə inkişaf etməkdədir. Tədbirin təşkilatçıları olan tərəfdaşlarımız da qeyd etdilər ki, onlar belə tədbirlərin keçirilməsi üçün ölkəni seçərkən,ilk növbədə,sabitliyin, təhlükəsizliyin təmin olunduğu, inkişaf gedən ölkələrə etimad göstərirlər. Bu yarışlarla dünya Azərbaycanı kəşf etməyə davam etdi. Təxminən 500 milyondn artıq insan bu yarışı izlədi. Və beləliklə də,paytaxtımızı, onun inkişaf səviyyəsini gördü, tariximizlə tanış oldu, ən başlıcası isə, bizim ən böyük sərvətimiz olan insanlarımızı gördü, mehriban, xoşsimalı, qonaqpərvər insanlarımızı gördü.

Azərbaycan Prezidenti Dünya Azərbaycanlılarının IV Qurultayında qarşıya məqsəd qoydu ki, biz çalışıb beynəlxalq media qurumlarına çıxmalıyıq, Azərbaycan həqiqətlərini dünya mətbuatında yaymalıyıq. Qoy dünya Azərbaycan gerçəkliklərini görsün. Hesab edirəm ki, "Formula-1"növbəti dəfə bu baxımdan çox unikal imkan yaratdı. Dünyanın nəhəng telekommunikasiya koorporasiyaları, mətbuat nümayəndələri, çap və elektron media təmsilçiləri Bakı və Azərbaycanımız haqqında çoxsaylı məlumatları dünyaya yaydılar.

Təbii ki, hər bir turist getdiyi ölkə haqqında informasiyalar toplamaqda maraqlı olur. Bu yarışlarla, tədbirlərlə biz bax bu cür informasiyaların yayılmasına nail oluruq. Bu yarış zamanı təxminən 15 minə yaxın turist ordusu Azərbaycana gəldi. 5 il ərzində bu yarış



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

bizim ölkədə keçiriləcəkdir. Hesablamalar görə, növbəti illərdə bundan 4-7 dəfə çox turistin ölkəmizə gəlməsi gözlənilir.

Deməliyik ki, bu, həm də Qarabağ həqiqətlərinin dünyaya çatdırılması baxımından əla imkandır. Ölkəmizin əleyhdarları haqqımızda təhrif olunmuş, xoşagəlməz məlumatları yayırdılar. Ancaq qonaqlar, turistlər bir daha gördü ki, Azərbaycan sürətlə inkişaf edən, demokratik azadlıqların qorunduğu, islahatlar gedən bir dövlətdir. Deyir,yüz eşitməkdənsə, bir görmək yaxşıdır, turistlər də gəldilər və ölkəmizi, onun inkişafını, bütün gözəlliklərini öz gözləri ilə gördülər.

Məlum olduğu kimi, Azərbaycan inkişafın bütün istiqamətləri üzrə öz modelini ortaya qoymaqdadır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək, bu gün Azərbaycan dünya miqyasında elə də böyük dövlət deyil, lakin sözümüzün çəkisi böyükdür. Sözün həqiqi mənasında,ölkəmizin çəkisini, rolunu dünya siyasətində hər bir dövlət görür, qiymətləndirir, ölkəmizi dünya siyasətində etibarlı tərəfdaş kimi dəyərləndirirlər. Təsadüfi deyil ki, Azrbaycan 2012-2013-cü illərdə BMT Təhülkəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, iki dəfə bu nəhəng təşkilata sədrlik etdi. Azərbaycan dünyada baş verən proseslərə təsir etmək gücündədir və çoxdan regional səviyyəni aşıb.

Cənab Prezidentin əsas məqsədi odur ki, Azərbaycan dünyanın inkişaf etmiş dövlətləri sırasına daxil olsun. Bunun üçün isə potensialımız var, ən böyük gücümüz isə ondadır ki, ölkəmizdə ictimai-siyasi sabitlik var və dinamik inkişaf tempi qorunub-saxlanmaqdadır. Bütün bunlar dünya üçün Azərbaycanı cəlbedici edir. Odur ki, ölkəmizdə keçirilən beynəlxalq tədbirlər heç də təsadüfi deyil (4).

2012-ci ildə Evrovision musiqi yarışmasına, 2015-ci ildə Birinci Avropa Oyunlarına, “Formula-1” yarışlarına və IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdi. Bütün yarışlar ölkəmizin imici üçün çox böyük əhəmiyyətə malikdir. Azərbaycan müsəlman ölkəsidir, İslam Əməkdaşlıq Təşkilatının üzvüdür, eyni zamanda Avropa ölkəsidir, Avropa Şurasının üzvüdür. Biz iki sivilizasiya arasında körpüyük, eyni zamanda, deməliyəm ki, bir müsəlman ölkəsinin Avropa ölkəsi kimi ön plana çıxması müasir dünyamız üçün unikal hadisələrdən biridir.

Tarixdə ilk dəfə olaraq I Avropa Oyunlarının ölkəmizdə keçirilməsi bir anın içində bütün Avropanın və bütün dünyanın diqqətini Azərbaycana çevirdi. I Avropa Oyunlarının Azərbaycanda çox yüksək səviyyədə təşkil edilməsi və keçirilməsi ölkəmizin necə inkişaf etdiyini bir daha dünyaya sübut etdi. Deyərdim ki I Avropa Oyunları Olimpiya Oyunları səviyyəsində təşkil olunmuşdur. Bu yarışlarda Avropanın 50 ölkəsinin 10 000 idmançısı mübarizə aparıb. Yarışlarda Bakının 11, Mingəçevirin isə 1 idman qurğusundan istifadə olunub. 2015 Avropa Oyunlarının təqviminə 30 idman növü daxil idi. Onlardan 24-ü Olimpiya, 6-sı isə qeyri-Olimpiya idman növüdür.

Ölkəmizdə 2017-ci ildə keçirilən IV İslam Həmrəyliyi Oyunları isə bütün İslam ölkələrinin və dünyanın diqqətini bir daha Azərbaycana cəlb etdi. Dünyada gedən gərgin proseslərin fonunda Azərbaycan belə bir böyük idman bayramına ev sahibliyi edərək öz gücünü bir daha dünyaya göstərdi. Coğrafi baxımdan Qərblə Şərq arasında yerləşən Azərbaycan sivilizasiyaların qovuşduğu məkandır. Ölkəmiz uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olmuşdur. İslam dininin yayılmasında , müsəlman intibahının bərqərar olmasında azərbaycanlıların da özünəməxsus



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

rolu olmuş və İslam mədəniyyətinin formalaşmasında böyük nailiyyətlər qazanmışlar. Bütün bunlar Azərbaycan ərazisində ilk vaxtlardan İslam dininin maddi və qeyri-maddi irsinin təkamülünə zəmin yaratmışdır. Azərbaycan o azsaylı dövlətlərdəndir ki, həm Avropa təşkilatlarının, həm də islami strukturların üzvüdür. Respublikamız İslam Əməkdaşlıq Təşkilatının, İSESCO-nun, həmçinin müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilərək İslam aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurmuş, qlobal əhəmiyyətli bir sıra mühüm mədəni forumların təşkilatçısı kimi çıxış etmişdir. Təsadüfi deyildir ki, Bakı 2009-cu ildə “İslam mədəniyyətinin paytaxtı” elan olunmuşdur. 2009-cu ilin oktyabr ayında isə Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün “İslam mədəniyyətinin paytaxtı” elan olunmasına dair qərar qəbul edilmişdir. 2016-cı il “Multikulturalizm ili”nin məntiqi davamı kimi 2017-ci ilin “İslam Həmrəyliyi ili” elan olunması da, əslində, bütün dünyaya yönələn bir çağırışdır. Həmrəy, tolerant, sabit bir dünya çağırışıdır! Bu qərar Azərbaycanın İslam dünyasını narahat edən bütün problemlərin həllində əməkdaşlığa, İslam həmrəyliyinə can atmasının bariz sübutudur. Azərbaycan, həmçinin bununla bütün dünyaya İslam ölkələrinin həmrəyliyi, inkişafı ilə bağlı nümunə təqdim edir. 12-22 may tarixlərində baş tutan IV İslam Həmrəyliyi Oyunları isə ölkəmizin bu həmrəylin möhkəmləndirilməsi sahəsində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaratdı. İslam Həmrəyliyi Oyunları birlik, qardaşlıq və dostluq oyunları oldu. Bu yarışlar sülhün, əmin-amanlığın, həmrəyliyin möhkəmlənməsi üçün dünyaya bir çağırış idi. Yarışın əsas şüarı da “Gücümüz həmrəylikdədir” seçilmişdir. İnanırıq ki, bu il çərçivəsində reallaşan İslam Həmrəyliyi Oyunlarının müsəlman ölkələrinin birliyinə böyük təsiri olacaq (5).

## Ədəbiyyatlar:

1. Babanlı Y, Tələbə-gənclərib fiziki tərbiyəsi (Dərs vəsaiti), “OL”MMC, Bakı-2016, 112 səh.
2. Nəsrullayev M., Hüseynov E., Əliyev İ., Nuriyev Y. Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası. dərs vəsaiti, “Araz”, Bakı, 2012, 372 səh.
3. Məcidov N.B. İdman nəzəriyyəsi. Nərgiz nəşriyyatı. Bakı, 2009, 148 s.
4. Quliyev D.Q., Y.M.Babanlı, İlham Əliyev və Azərtbaycan gəncliyi. “Təknur”, Bakı, 2013, 328 səh.
5. www.mys.gov.az



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.